## Nur

**◆Süleyman Abdulla**

*Əbülfəz Elçibəyin xatırəsinə*

Susub məğlubların zəfər sincləri,
Bir yenik qəhrəman bəxtə şən gülür.
Sevinir nəmləmiş məhbəs küncləri,
İşə baxan gülür, iş verən gülür.

Tanrı hökm çıxarıb, cəzanı kəsib,
Milli məcəlləyə heç uyğun gəlmir.
Nə ona etiraz, nə bundan nəsib,
Tapılmır almağa vec,- uyğun gəlmir.

Səkkiz guşəlidir sevimli dərd, bax,
Üçrəngli səmadan aldılar səni.
Qara gündə doğdun, aypara ap-ağ,
Milli nur gününə saldılar səni.

Əyilmə, boyundan alçaqdır tavan,
Zülmətdən günəş tək sıyrıl, çıx, yeri!
Bu zülmət qocadır, o işıq cavan,
Dustaqdır ruhunun azadlıq yeri...

## İtirsəniz Məni...

**◆ Vaqif Osmanov**

Bir gün itirsəniz, a dostlar, məni
Riyasız, boyasız izim qalacaq.
Dosta sədaqətim, düşmənə kinim,
Əqidəm, amalım, izim qalacaq.

Doğulandan aldım düzlük dərsimi,
Təməli möhkəmdi ömür qəsrimin.
Hadisi olmadım mən öz əsrimin,
Nə imzam, nə də ki, sözüm qalacaq.

Od da var, su da var Odlar yurdunda,
Günəşi parlayır şehli otunda.
Ürəyim nurlanıb Zərdüşt odunda,
Mən od aşiqiyəm, közüm qalacaq.

Ömür gərgin oyun, biz qoşa zərik,
Hər dərdə, sevincə olmuşuq şərik.
Sevginin gözünə baxmışam dimdik,
Gözündə yurd salan gözüm qalacaq.

Doğrunu danmadı həqiqət pərim,
Babam Nəsimitək soyulsa dərim.
Dostların qəlbində əbədi yerim,
“Mən”i tamamlayan “özüm” qalacaq.